BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4* *Humanitar elmlər seriyası* *2013*

**UOT 94(479.24)**

# AZƏRBAYCAN-BÖYÜK BRİTANİYA ƏMƏKDAŞLIĞINDA MƏDƏNİ ƏLAQƏLƏRİN İSTİQAMƏTLƏRİ (1994-2004-cü illər)

**E.A.QASIMOV**
***Azərbaycan Dillər Universiteti***
***90qasimov@mail.ru***

*Müstəqillikdən sonra Azərbaycan Respublikası Böyük Britaniya ilə birbaşa mədəni sahədə əlaqələr qurmuşdur. Mədəni əməkdaşlığın əsas formaları və əlaqələrin həyata keçirilməsində iştirak edən orqanlar müəyyənləşdirilmişdir. Mədəni əlaqələrin formalaşmasında Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Londondakı səfirliyi, Azərbaycan icması və b. orqanlar yaxından iştirak etmişdir. Əlaqələrin əsas formaları isə incəsənət kollektivlərinin qarşılıqlı səfərləri, mədəniyyət günlərinin keçirilməsi və s. olmuşdur.*

**Açar sözlər:** incəsənət, Böyük Britaniya, müqavilə, xarici siyasət, mədəniyyət

Azərbaycan dövlət müstəqilliyini elan etdikdən sonra beynəlxalq fəaliyyət sahəsində tamamilə yeni şərait yaratdı. Azərbaycan Respublikası Qərbi Avropa dövlətləri ilə mədəni əlaqələr sahəsində əməkdaşlığının qurulması istiqamətində müəyyən tədbirlər həyata keçirdi. Əməkdaşlıqda dünyanın mədəni mərkəzlərindən biri olan Böyük Britaniya mühüm yer tuturdu.

Böyük Britaniya 1991-ci il dekabrın 31-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı, 1992-ci il martın 11-də diplomatik münasibətlər yaradan bu Qərbi Avropa dövləti, 1993-cü ilin sentyabr ayında Azərbaycanda səfirliyini açdı [1].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ildə Böyük Britaniyaya rəsmi səfərindən sonra Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında elmi-texniki, mədəniyyət, təhsil sahələrində əməkdaşlıq başlandı.

Heydər Əliyev 1994-cü il fevralın 23-də Azərbaycan Respublikası hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı hökumətləri arasında elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq haqqında 16 maddədən ibarət sazişi imzaladı [2].

Mədəni əlaqələrin formalaşmasında Azərbaycan Respublikasının Londondakı səfirliyi də yaxından iştirak etmişdir. Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin və Azərbaycan icmasının birgə səyi nəticəsində Londonda «Azərbaycan» qəzetinin ilk nömrəsi 1994-cü ilin may ayında çapdan çıxdı [7]. Bu Azərbaycan həqiqətlərinin çatdırılmasında böyük töhfə verdi.

Böyük Britaniya ilə mədəni əlaqələrin genişlənməsində Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi də iştirak etmişdir. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin fəaliyyətinin əsas istiqamətlərindən biri də gənclər arasında və idman sahələrində beynəlxalq əlaqələrin qurulması idi. Bu, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına, Azərbaycan gənclərinin Qərb ölkələrinin plüralizm və demokratiya təcrübəsi ilə müntəzəm tanış edilməsinə Azərbaycan idmançılarının, mütəxəssislərinin, idman xadimlərinin beynəlxalq yarışlarda və digər tədbirlərdə iştirakına şərait yaradılmasına, əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə xeyli kömək edir.

Azərbaycan Respublikasının Gənclər və İdman naziri Ə.Qarayev 1998-ci il 16-17 aprel tarixdə «Keçmiş Sovet İttifaqında demokratik quruculuğun inkişafı» mövzusunda London konfliktlər və dövlət quruculuğu informasiya şəbəkəsinin (LİNKS) keçirdiyi tədbirdə iştirak etdi [3]. O, konfransda «Azərbaycan demokratiyanın inkişafı yolları» mövzusunda məruzə ilə çıxış etdi. Məruzənin giriş hissəsi, Azərbaycan dövlətçiliyinin tarixinə və bu günkü vəziyyətinə həsr olunmuşdu. Nazirin çıxışında həmçinin geniş surətdə Ermənistanın Azərbaycana təcavüzü əks etdirildi. Bunun nəticəsi olaraq insani, maddi və mənəvi və s. itkilər göstərildi.

Böyük Britaniyada keçirilən müxtəlif tədbirlərdə gənclərin və idmançıların iştirakına ayrıca diqqət yetirilmişdir. Belə ki, 1999-cu ilin may ayında Avropa Şurasının "Astion D" proqramı çərçivəsində, Azərbaycan Gənclər Təşkilatları Milli Şurası və Böyük Britaniyanın Xristian Gənclər Təşkilatının birgə "Avropaya Körpü" layihəsində Böyük Britaniyanın Uels əyalətində gənclər işinə dair 5 azərbaycanlı gənc təcrübə mübadiləsi keçdi [6].

2001-ci ildə Böyük Britaniya idmançıları Azərbaycanda keçirilən Novruz bayramına, Qurtuluş gününə, general Həzi Aslanovun xatirəsinə, konstitusiya gününə, Beynəlxalq Bakı Federasiyasının prezidenti Ə.Çokdrinin şərəfinə həsr olunmuş turnirlərdə iştirak etdilər [4].

İki ölkə arasında turizm sahəsində əlaqələri inkişaf etdirmək məqsədilə Azərbaycanın Londondakı səfiri R.İbrahimov 2004-cü il oktyabr ayının 14-də Böyük Britaniyanın Turizm üzrə Təşkilatının (BTT) xarici əməliyyatlarının müdiri Roçer Conson ilə görüşdü. Görüş zamanı səfir 2004-cü il noyabr ayının 8-11-də Londonda keçirilən Dünya Turizm Sərgisində Azərbaycan Respublikasının iştirakını təsdiqlədi. Sərgi zamanı BTT-nın sədri və Azərbaycan nümayəndələri arasında görüşün təşkil edilməsini xahiş etdi. R.Conson bu məsələni BTT-də araşdırıb əlavə məlumatı səfirliyə təqdim edəcəyini əmin etdi [5].

Daha sonra Azərbaycan və Britaniya arasında turizm inkişafına diqqət yetirilməsini vurğuladı və BTT-nın bu məsələlərdə təcrübəsini nəzərə alaraq, təşkilat tərəfindən kömək və məsləhət verilməsini xahiş etdi. R.Conson Azərbaycan və Britaniya turizm əlaqələrinin genişləndirilməsini dəstəklədi. Birbaşa uçuşlarını, turizmin xüsusi sahələrinin inkişaf edilməsini zərurətini bildirdi və xarici mətbuatda Azərbaycanın daha çox işıqlandırılmasını təklif etdi. R.Conson beynəlxalq müxbirlərin Azərbaycana səyahət etməsini məqsədəuyğun saydı.

Mədəni əlaqələrin əsas formalarından biri də incəsənət kollektivlərinin qarşılıqlı qastrol səfərləri, mədəniyyət günlərinin keçirilməsi və xeyriyyə təşkilatlarının fəaliyyəti olmuşdur.

1999-cu il 11-19 oktyabr tarixdə Azərbaycanda Böyük Britaniya həftəsi keçirildi. Britaniya Şurasının Bakıdakı nümayəndəliyi ilə keçirilən görüşlərdə həmin həftəlik çərçivəsində idman tədbirlərinin də keçirilməsi planlaşdırıldı. 7-11 yaşlı uşaqlarla məşğul olan, futbol, otüstü xokkey və tennis üzrə məşqçilər üçün nəzərdə tutulan seminarda 25 nəfər məşqçi-müəllim iştirak etdi. Seminarda istifadə olunan və İngiltərədən gətirilmiş digər idman ləvazimatları məşqçilərə hədiyyə edildi. Seminarı İngiltərədən gəlmiş məşqçilər Qari Nil və Karol Hauman keçirdilər.

Böyük Britaniyanın “Samaritan`s Purse” xeyriyyə təşkilatının təşəbbüsü ilə Azərbaycanda məskunlaşan qaçqın, köçkün və kimsəsiz ailələrdən olan uşaqların sevincinə şərik olmaq məqsədilə 2000-ci ilin iyun ayında müvafiq proqram əsasında İngiltərənin tanınmış futbol klublarının veteranları Sumqayıt, Bakı, Sabirabad və Göyçay rayonlarında futbol məşqləri, oyunları keçirdilər. Bu proqramın əsas məqsədi adı çəkilən uşaqlara “Yeni il” hədiyyələrin gətirilməsi idi. Sentyabr, oktyabr aylarında həmin təşkilat vasitəsilə İngiltərənin ATN teleşirkətinin nümayəndələri Azərbaycanda oldu. Sumqayıt, Sabirabad, Saatlı və Bakı şəhərində məskunlaşmış qaçqın, köçkün və kimsəsiz uşaqlar və Azərbaycan haqqında veriliş hazırlayıb İngiltərə televiziyası vasitəsi ilə yayıldı.

2000-ci ildə Böyük Britaniyanın «Bullies Ballerinas» müasir caz rəqs ansamblı üç gün bakılıların qonağı oldu. Rəşid Behbudov adına Mahnı Teatrında bu ansamblın çıxışlarını tamaşaçılar alqışlarla qarşıladılar [10]. 1990-cı ildən fəaliyyətə başlayan ansambl Azərbaycana Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin təşəbbüsü ilə dəvət olunmuşdu. Konsertlər zamanı rəqs ansamblına Böyük Britaniyanın «Ernst and Young», «Consafe», «BP» və digər şirkətləri sponsorluq etdilər. Eyni zamanda ansambl Azərbaycan xoreoqrafiya məktəbinin 40 şagirdi ilə 2 seminar keçirdi.

Xarici ölkələrdə mövcud olan səfirliklərin mədəniyyət və təhsil şöbələrinin funksiyalarını həyata keçirən Britaniya Şurası Azərbaycanda uğurlu fəaliyyətini davam etdirdi. Bu layihələrdən biri Böyük Britaniyanın tanınmış «Coldrush» qrupunun 2004-cü ildə Bakıda keçirilən konserti idi [9]. Heydər Əliyev adına sarayda keçirilmiş konsert tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılandı.

2000-ci ildə Azərbaycan Xalçası və Xalq Təbabəti Sənəti Dövlət muzeyinin direktoru R.Tağıyeva Böyük Britaniyada keçirilmiş konfransda, Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru A.Bayramova Edinburqda simpoziumda oldu.

Mədəniyyət Nazirliyi və Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin mədəniyyət şöbəsi ilə birgə aparılan danışıqlar nəticəsində iyun ayının 19, 20, 21-də Londonun «Volkano» teatrı Bakıya qastrola gəldi. Kollektiv Azərbaycan Dövlət Musiqili Komediya teatrında U.Şekspirin sonetləri əsasında hazırlanmış tamaşa ilə çıxış etdi.

2001-ci ildə Britaniya Şurasında keçirilmiş mətbuat konfransda çıxış edən şuranın sədri xanım Marqaret Cek bildirdi ki, Azərbaycanın üç incəsənət nümayəndəsi Böyük Britaniyanın incəsənət təşkilatlarının işində iştirak etmək üçün dörd həftəlik Britaniyaya səfər edəcəklər. M.Cekin sözlərinə görə, bu səfəri Visiting Arts təşkil edir. Proqramın əsas məqsədi incəsənət sahəsində əlaqələrin genişləndirilməsidir [11].

2001-ci ildə Bakıda uğurlu konsert verən tanınmış britaniyalı pianoçu Deniel Qrinvud yenidən növbəti konsertini 2002-ci ildə ikisi Bakıda, biri isə Gəncədə olmaqla keçirdi. Pianoçunu Aleksey Miltix, Dilarə Mehdiyeva, Soltan Məmmədova və Vaxtanq İmanovdan ibarət Azərbaycan kvinteti müşayiət edirdi. Bu, Deniel Qrinvudun Azərbaycana ikinci səfəri idi. Onun 2001-ci ildə Bakıda verdiyi konsertlər böyük uğurla keçmişdi. Britaniya pianoçusunun konsertləri Britaniya Şurasının və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunur. O, kamera və orqan musiqisi salonunda, Bakı Musiqi Akademiyasında və Gəncə Dram Teatrının səhnəsində çıxış etdi [12].

Mədəni əməkdaşlığın qurulması və inkişaf etdirilməsinin tarixi əhəmiyyəti var idi. Bu əlaqələr xalqların bir-birinə yaxınlaşmasına, qarşılıqlı anlaşmaya, həmin ölkələrin mədəniyyət sahəsində nailiyyətlərinin təbliğində mühüm rol oynamışdır. Eyni zamanda Azərbaycan haqqında obyektiv informasiyanın, zəngin və mədəni tarixi haqqında məlumatların yayılmasında Ermənistanın hərbi təcavüzünün nəticələri və respublikada yaranmış vəziyyət barədə təsəvvür formalaşdırmağa kömək etmişdir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının müstəqilliyini tanıyan və onunla diplomatik əlaqələr yaradan dövlətlərin siyahısı. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivi. 1993-cü il.
2. Azərbaycan Respublikası hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı hökuməti arasında təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq haqqında saziş. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin cari arxivi. 1994-cü il.
3. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri cənab Ə.Qarayevin Londona səfərinin yekunu barədə arayış. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin cari arxivi. 1998-ci il.
4. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm 2001-ci il üçün hesabatı. Nazirliyinin cari arxivi. 2001-ci il.
5. Azərbaycan Respublikasının Londondakı səfiri R.İbrahimovun Böyük Britaniyanın Turizm üzrə Təşkilatının Xarici Əməliyyatlarının müdiri Roçer Conson ilə söhbətinin yazısı

(2004-cü il 14 oktyabr). Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin cari arxivi. 2004 -cü il.
6. Böyük Britaniya və Azərbaycan arasında gənclərlə iş və idman sahəsində əlaqələr barədə arayış (1998-2000-ci illər). Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin cari arxivi. 2000-ci il.
7. Günün xəbərləri. «Xalq» qəzeti, 1994, 10 iyun.
8. British Council növbəti layihəsini təqdim etdi. «Respublika» qəzeti 2004, 10 oktyabr.
9. Ansamblın konserti başa çatdı. «Respublika» qəzeti, 2000, 5 dekabr.
10. Britaniya-Azərbaycan əlaqələri genişlənir. «Respublika qəzeti», 2001, 14 oktyabr.
11. Britaniyalı pianoçu Daniel Qrinvud Bakıya gələcək. «Azərbaycan» qəzeti, 2002, 30 oktyabr.

## СОТРУДНИЧЕСТВО МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ВЕЛИКОБРИТАНИЕЙ В КУЛЬТУРНЫХ ОТНОШЕНИЯХ (1994-2004 гг.)

**Э.А.КАСУМОВ**

### РЕЗЮМЕ

После обретения независимости Азербайджанская Республика установила отношения в культурной сфере с Великобританией. Были определены основные формы и органы для реализации отношений. Министерство Молодежи, Спорт и Туризма Азербайджанской Республики, посольство Азербайджанской Республики в Лондоне, сообщества Азербайджана и другие организации приняли активное участие в формировании культурных связей. Основными формированиями отношений были двухсторонние визиты творческих коллективов, дни культуры и другие.

**Ключевые слова:** искусство, Великобритания, соглашение, внешняя политика, культура

## COOPERATION BETWEEN AZERBAIJAN AND GREAT BRITAIN IN CULTURAL RELATIONS (1994-2004 years)

**E.A.GASIMOV**

### SUMMARY

Having gained independence, the Republic of Azerbaijan established relations with the United Kingdom in the sphere of cultural cooperation. There were many identified forms and bodies for the implementation of these relations. Ministry of Youth, Sport and Tourism of Azerbaijan Republic, Embassy of Azerbaijan Republic in London, Azerbaijan community and other organizations take active parts in the formation of cultural relations. These relations manifest in the form of mutual visits of groups, days of culture etc.

**Key words:** applied, Great Britain, agreement, foreign policy, culture